# The difficult problem of consciousness: in the prism of the Communicative aspect of the post-neoclassical approach

**Fuzuli Gurbanov**
Doctor of philosophical sciences, Institute of Philosophy and Sociology of ANAS,
head of department. Azerbaijan. E-mail: fuzuli.qurbanov59@mail.ru
https://orcid.org/0000-0002-9424-9098

**Abstract.** The article analyzes the difficult problem of consciousness formulated by D. Chalmers. The history of the study of this problem in the light of post-neoclassical epistemology is considered. In particular, some principles and representations of synergetics are used (emergence, emergent interface, complexity, meaning generation, meta observer). A thesis is put forward on the paradox of approaches to solving the difficult problem of consciousness and on the need to form an interdisciplinary approach for an adequate study of this issue.
**Purpose:** philosophical analysis of the difficult problem of consciousness in the framework of the post-neoclassical approach
**Methodology:** post-neoclassical interdisciplinary approach
**Scientific novelty:** a thesis is put forward on the need for an interdisciplinary approach for adequate philosophical knowledge of the difficult problem of consciousness.
**Keywords:** conseiousness, post-neoclassic, communication, emergence, complexity, emergent, interface, meaning generation, meaning, observer, metaobserver.

http://dx.doi.org/10.29228/edu.243
**To cite this article:** Gurbanov F. (2020) *The difficult problem of consciousness: in the prism of the Communicative aspect of the post-neoclassical approach.* «Scientific works», Vol. 34, Issue I, pp. 15-22
**Article history:** Received — 25.02.2020; Accepted — 14.03.2020

# Şüurun çətin problemi: postneoklassik yanaşmanın kommunikativ aspekti prizmasında

**Füzuli Qurbanov**
Fəlsəfə elmlər doktoru, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, şöbə müdiri,
Azərbaycan. E-mail: fuzuli.qurbanov59@mail.ru
https://orcid.org/0000-0002-9424-9098

**Annotasiya.** Məqalədə D.Çalmers tərəfindən formulə edilmiş şüurun çətin problemi təhlil edilir. Postneoklassik epistemologiya işığında bu problemin tədqiqi tarixinə nəzər salınır. O cümlədən sinergetikanın bir sıra təsəvvür və prinsiplərinə müraciət edilir

(emercentlik, emercent interfeys, mürəkkəblilik, məna yaradılması, metamüşahidəçi). Şüurun çətin probleminin həlli üçün irəli sürülən yanaşmaların paradoksallığı və bu məsələnin adekvat həlli üçün fənlərarası yanaşmanın formalaşdırılması zəruriliyi haqqında tezis irəli sürülür.
**Məqsəd:** şüurun çətin probleminin postneoklassik yanaşma çərçivəsində fəlsəfi təhlili
**Metodologiya:** postneoklassik fənlərarası yanaşma
**Elmi yenilik:** şüurun çətin probleminin adekvat fəlsəfi dərki üçün fənlərarası yanaşmanın zəruriliyi ilə bağlı tezis irəli sürülür
**Açar sözlər:** şüur, postneoklassika, kommunikasiya, emercentlik, emercent interfeys, məna yaradılması, məna, müşahidəçi, metamüşahidəçi.

http://dx.doi.org/10.29228/edu.243
**Məqaləyə istinad:** Qurbanov F. (2020) *Şüurun çətin problemi: postneoklassik yanaşmanın kommunikativ aspekti prizmasında.* «Elmi əsərlər», № 1 (34), səh. 15-22
**Məqalə tarixçəsi:** göndərilib − 25.02.2020; qəbul edilib − 14.03.2020

## Giriş / *Introduction*

Tarix boyu şüur mövzusuna filosoflar böyük maraq göstəriblər. Hətta deyə bilərik ki, fəlsəfi refleksiya elə şüur mövzusundan başlayır. Çünki fəlsəfə özlüyündə müəyyən mənada şüurun öz-özünü dərkidir. Fəlsəfənin istənilən sualı şüurun özünə olan refleksiyasının fraqmentidir (belə demək mümkündürsə). Ancaq maraqlıdır ki, fəlsəfə tarixi boyu qaldırılan sualların heç birinə tam və hər kəsin qəbul etdiyi cavab da ala bilməyib. Əlbəttə, elə ümumi fikirlər vardır ki, fəlsəfə onları ümumiyyətlə qəbul edir. Məsələn, varlıq, şüur, təfəkkür, hərəkət, yoxluq, zaman və məkan, idrak və s. fəlsəfi problemlərdir. Ancaq onların fəlsəfi dərkinin konkret məzmunu fəlsəfi məktəblərdən asılı olaraq fərqli olur. Daha dərinə gedəndə məsələ yenə də şüurun özünün fəlsəfi anlamına reduksiya olunur. Yəni şüur nədir? Fenomenoloji təcrübə necə yaranır? Beyin niyə şüur yaradır? Beyin şüuru necə yaradır? [8, s. 232].

"Nəsə olmağı" ifadə edən nəsə niyə mövcuddur? Niyə subyektdə müəyyən şüuri hallar meydana gəlir? Bu problemin bir qədər fərqli qoyuluşu belədir: hər hansı fiziki sistem necə subyektiv təcrübə yaratmaq qabiliyyətindədir?

Bu cür sualların qoyulmasını avstraliyalı filosof Devid Çalmers "şüurun çətin problemi" (hard problem of consciousness) adlandırıb. O etiraf edir ki, sadəcə, çoxdan yaxşı məlum olan problemin uğurlu təqdimatını tapıb. Çünki məsələnin bu cür qoyuluşu problemdən qaçmanı inkar edir və onun həlli üçün mümkün yanaşmaları stimullaşdırmağa imkan verir [1].

D.Çalmers insanın daxili yaşantısını necə yaşadığı məsələsinə diqqət yönəldir. Məsələn, insan narıncı rəngi duyur və o, daxildə müəyyən yaşantı yaradır. Bu "daxili yaşantı" necə yaranır? Onun fəlsəfi təşəkkülü necədir? İnsan obrazları, rəngləri necə "şüurlaşdırır" ? Bu kimi sualların sayını artırmaq olar.

Şüurun çətin problemi ilə yanaşı, onun asan problemləri haqqında da danışırlar. Asan problemlər dedikdə, şüurun tədqiqi zamanı standart elmi yanaşmaların tətbiqi mümkün olan məsələlər nəzərdə tutulur. Bu metodlar üçüncü şəxs mövqeyindən şüurun nə etdiyini, zaman çərçivəsində onun dəyişkənliyini və strukturunu öyrənməyə imkan verir. "Şüur niyə mövcuddur?" sualına cavab hamıya məlum olan elmi metodların tətbiqi sərhəddindən kənara çıxmağı tələb edir. Deməli, faktiki olaraq şüurun ən azı iki qatının mövcudluğu qəbul edilir – birinci, müasir elmi metodlar vasitəsi ilə dərk edilə bilən, elmi izahı qaneedici olan qat (mərhələ, səviyyə), ikinci – ancaq fəlsəfə ilə elmin kəsişməsində izahı mümkün ola bilən, lakin hələlik müəyyən məqamları məlum olan, "şüur nəzəriyyəsi"nin

formalaşmasına aparıb çıxaran qat. İkinci qat və ya səviyyə müasir fəlsəfi-elmi idrak üçün fundamental sayıla bilən, universal xarakterli problemlərlə bağlıdır.

Nəhayət, onu vurğulayaq ki, şüurun çətin problemi müasir şüur fəlsəfəsində nəzəri tədqiqatların mühüm predmetidir. Onu həm də psixologiyada, neyroelmdə və kvant fizikasında öyrənirlər. Şüurun çətin problemi tədqiq olunanda mental halların təbiəti (kvalia) məsələsinə də toxunulur. Elmi metodologiyanın tətbiqi sərhədləri də bu baxımdan araşdırıla bilər. Elmi tədqiqatların birinci şəxs mövqeyindən imkanları da öyrənilir. Ancaq fəlsəfi baxımdan burada bir aktual və əhəmiyyətli məqam mövcuddur. Fəlsəfi təfəkkürün immanent dinamikasının işığında şüurun çətin problemini necə təsəvvür etmək olar?

## Əsas hissə / *Main Part*

### Fəlsəfi təfəkkürün dəyişməsi və şüurun çətin problemi: Kantdan sonra...

Problemə qədim dövrlərdən deyil, Avropada XVIII əsrdən başlayaraq fəlsəfi təfəkkürdə özünü göstərən dəyişikliklər prizmasından qısa nəzər salaq. Məlumdur ki, İ.Kant fəlsəfəsində dünyanın insan zəkasına necə uyğun gəldiyi problemi qoyulub. Bu problemi, alman filosofu zəkanın özünə zəka çərçivəsində tənqidi yanaşma metodu ilə həll etməyə çalışıb. Nəticədə, Avropada tənqidi fəlsəfə formalaşıb. Kantdan sonra onun özünün yanaşmasına tənqidi yanaşma vüsət almağa başladı. Fəlsəfədə buna "həyat fəlsəfəsi" cərəyanı deyirlər. Onun F.Nitsşe, V.Diltey, A.Berqson, psixoanalitiklər, ekzistensialistlər və s. kimi tanınmış nümayəndələri vardır. Bununla, Kantın tənqidi yanaşmasına tənqidi yanaşma meydana gəldi. Həyat fəlsəfəsi tərəfdarları rasionalizm əvəzinə irrasionalizm, iradə, canatma, daxili yaşantı və s. kimi anlayışlara üstünlük verdilər. Onlar üçün mücərrəd rasionalist və harmonik (məsələn, zəka ilə iradənin harmoniyası) dünya əvəzinə gündəlik həyat dinamikası, həyatın gedişatı, insanın daxili yaşantıları, iradi, ekzistensialist özəllikləri ön plana çıxdı. Bu, təbii ki, zəkanın tamamilə arxa plana atılması demək deyildi. Bəlkə də irrasional-psixi-iradi-mental dünyanın önə çəkilməsi idi. Hər bir halda artıq 200 ildən çoxdur ki, Avropa fəlsəfəsi rasionalizmlə irrasionalizm arasında balans axtarır. Bu, təbii ki, metaforik ifadədir, lakin fəlsəfi aspektdə təfəkkürün dinamikasında vacib bir özəlliyi dərk etməyə istiqamətləndirir. Daha geniş mənada, həqiqətin zəkada və ya iradədə (bütövlükdə daxili yaşantıda) dilemmasının paradoksla qoyuluşu və həllinə cəhdindən ibarətdir. Paradoksallıq zəkanın tənqidi ilə zəkanın tənqidinin tənqidinin bir-birinə münasibətindən qaynaqlanır. Onların hər ikisi Qərb fəlsəfi təfəkkürünün məhsuludur. Kant zəka-həqiqət münasibətlərini zəkanın özünün qaydaları çərçivəsində tənqidi konstruksiya edirdisə, həyat fəlsəfəsi (məsələn, Nitsşe, Berqson, Kyerkeqor) eyni problemə zəkavi olmayan "sahədən", lakin yenə də zəkanın koqnitiv qaydaları prizmasında baxırdılar. Bu cür yanaşmalar həm fəlsəfi təfəkkürdə yeni "düyünlər" yaradırdı, həm də insan idrakında bir "ilgək formalaşdırırdı". Səbəbi isə, əslində, bütöv olanı – rasionalizm-irrasionalizm vəhdətini, Qərb fəlsəfi təfəkkürünü iki seqmentə (aspektə və ya fraqmentə) ayırması ilə bağlı idi. Həmin səbəbdən onların çıxış nöqtəsi fərqli olsa da, paradoksal şəkildə dərketmə sahəsində daim kəsişir, kiçicik "idraki ilgəklər" yaradır, sonra daha konkretliklərdə yenidən bir-birindən uzaqlaşırdılar. Burada bu cür mənzərəni əks etdirən nümunələri göstərməyə imkan yoxdur. Ancaq ümumi olaraq hər iki yanaşmanın son arqument olaraq zəkadan istifadə etdiyini hər kəs qəbul etməkdədir.

Bunlardan nəticə çıxara bilərik ki, bizim yuxarıda XVIII əsrdən başlayaraq Qəb fəlsəfi təfəkküründə dəyişiklik adlandırdığımız koqnitiv proses, əslində, psevdo dəyişiklik idi: o, özündə əvvəlki daxili ziddiyyəti daşımaqda idi! Bu səbəbdən də həmin dəyişikliyi bütövlükdə Qərb fəlsəfi təfəkkürünün daxilində baş vermiş makro transformasiya kimi təsəvvür edə bilərik ki, nəticədə, Qərb fəlsəfi təfəkkürünün koqnitiv markerləri dəyişmədi. Qədim Yunanıstandan gələn "yoldan kənara çıxılmadı". Burada analitiklik, bölücülüklə yanaşı, bir özündənrazılıq, ikrah və "idraki təkəbbür" də vardı. Bu paradoksallıq gec və ya tez yeni yanaşmalara təkan verməli idi. Bizim qənaətimizə görə, bu, fəlsəfə ilə elmin koqnitiv kəsişmə sahəsində özünü göstərməyə başladı. Görünür, səbəbi, hər iki yanaşma üçün elmi arqumentlərin tapılması əhəmiyyət kəsb edirdi. Maraqlıdır ki, elmi idrak vurğulanan koqnitiv paradoksallıq sahəsindən kənara çıxaraq, hər iki təfəkkür üsulu üçün ortaq olan kəsişmə sahəsində problemə yanaşmaya təkan verdi. Həmin sahə XX əsrin 20-30-cu illərindən

intensiv formalaşmaqda olan fənlərarası əlaqələr, elmlərin konvergensiyası, sintetik tədqiqat istiqamətlərinin (məsələn, avtopyezis, sinergetika) yaranması çərçivəsində təşəkkül tapmağa başladı. Bununla da fəlsəfi və elmi idrakın elmlərin qarşılıqlı əlaqəsi "zona"sında kommunikativ təmaslar daha da dərinləşdi və konkret məzmun kəsb etməyə başladı. Təsadüfi deyil ki, bu proses nəticəsində tədqiqatçılar "predmet fəlsəfəsi" ifadəsini tez-tez işlədirlər. Bu məhz mürəkkəb elmi problemin həllində fəlsəfi əsaslandırmanın zəruriliyini nəzərdə tutur. Eyni zamanda fəlsəfi təfəkkürün mühüm "qida" qaynağı elmi idrak əvvəlki dövrlərdən daha geniş, daha dərin və orqanik funksiya yerinə yetirməyə başlayır.

Bunlar onu göstərir ki, artıq D.Çalmers şüurun çətin problemini yeni məzmunda gündəmə gətirəndə fəlsəfə-elm münasibətlərinin bu kimi problemlərin həllində də aparıcı rol oynaya biləcəyi özlüyündə aydın idi (bu, dərk olunmaya da bilərdi). Xeyli dərəcədə D.Çalmersin şüurla bağlı yanaşması da vurğulanan kontekst çərçivəsindədir. Belə ki, D.Çalmers insanın daxili yaşantısını irrasional məqamlara tabe etmir. Əksinə, o yazır ki, şüurun çətin probleminin həlli fəlsəfə ilə elmin kəsişməsindədir: "Şüur problemi elm və fəlsəfənin kəsişməsində yerləşmiş həssas sərhəd problemidir" [2, s. 12]. O, özünün yanaşmasının əsas şərtlərindən biri kimi elmi "ciddi qəbul etməsini" göstərir, yəni qaldırdığı problemi elmi rasionallıq çərçivəsində həll edəcəyinə inanır. Hətta yazır ki, şüur problemi "mahiyyətcə elmi problemdir" [2, s. 12]. Və əlavə edir ki, "söhbət hərəkət, həyat, idrak kimi izah tələb edən təbii fenomendən gedir" [2, s. 12]. Bu məqamları nəzərə alsaq, "şüurun çətin problemi" məsələsinin qoyuluşu arxasında hansı fəlsəfi-qnoseoloji, metodoloji və dünyagörüşü özəlliklərinin dayandığı üzərində düşünməyə dəyər.

Vurğulanan kontekstdə ilk olaraq belə bir sual yarana bilər. Bu, müasir fəlsəfədə zəka ilə daxili yaşantını "barışdırmaq" cəhdidirmi? Obrazlı desək, Kantla Berqson "anlaşırmı"? Zəkanın zəka ilə tənqidindən zəka ilə daxili yaşantının fəlsəfi sintezi idrak baxımından daha konstruktiv və perspektivlidirmi? Bu suallara qəti cavab vermək tələskənlik olardı. Ancaq fəlsəfi təfəkkür həmişə önləyicidir, sualı qoyar, bəzən cavabını zamana buraxar.

Hər bir halda D.Çalmers və şüurun çətin probleminin başqa tərəfdarları ortaya maraqlı və kreativ təbiətli bir məsələ atıblar: daxili yaşantının şüuri hadisə ilə əlaqəsini aksiom kimi qəbul edirlər. Və şüurun mövcudluq fəlsəfəsi işığında daxili yaşantının necə formalaşdığını izah etməyə çalışırlar. Bununla onlar rasionallıqla irrasionallıq, zəka ilə iradə və canatma, izahla anlama, şüurla daxili yaşantı arasında "fəlsəfi-elmi körpü" atmağa cəhd göstərirlər. Ancaq burada bir "idraki tələ" vardır. O barədə biz ətraflı irəlidə bəhs edəcəyik. İndi şüurun çətin probleminin həllinə olan yanaşmaların təsnifatı üzərində qısa dayanaq.

**Şüurun çətin probleminə olan yanaşmaların qısa xarakteristikası**

Bu yanaşmaları 3 qrupa bölürlər: 1) belə bir problemin olduğunu inkar edən yanaşmalar; 2) şüurun çətin probleminin qeyri-mümkünlüyünü etiraf edən yanaşmalar; 3) problemi həll etməyə istiqamətlənmiş şüurun müxtəlif fəlsəfi və elmi nəzəriyyələrinin hazırlanmasını ifadə edən yanaşmalar [2].

Bunları bir qədər başqa terminologiya ilə ingilis psixoloqu Ceffri Alan Grey maraqlı tərzdə təsnifatlaşdırıb. Birinci, sadəlövh yanaşma. Bu, fəlsəfədə əsrlərdir ki, mövcuddur və tərəfdarları hesab edirlər ki, şüuri təcrübələr öz-özlüyündə mövcuddur, başqa problemləri həll etməyin əsasıdır və onu izah etməyə ehtiyac yoxdur.

İkinci, normal elm. Bu yanaşmanı bir çox alim və filosoflar doğru sayır. Onlar hesab edirlər ki, şüur tədricən neyroelm, koqnitiv elm, hesablama elmi çərçivəsində izah olunacaq. Bunun üçün beyinin işləmə prinsiplərini, ətraf mühiti nəzərə almaqla beynin orqanizm üzərində nəzarəti ilə bağlı daha çox şeyləri bilmək kifayət edər. Bu mənada ikinci yanaşma tərəfdarları şüurun çətin probleminin olduğunu qəbul etmirlər.

Üçüncü, yeni nəzəriyyə. Bu yanaşmanın tərəfdarları şüurun "asan" problemlərinin normal elm çərçivəsində öyrənilməsini vacib sayırlar. Bununla beyinin işləmə prinsiplərini daha yaxşı dərk etmək mümkün olar. Ancaq bununla yanaşı, şüurun çətin problemlərini mövcud normal elm daxilində öyrənmək mümkün deyildir. Bunun üçün yeni nəzəriyyə yaratmaq gərəkdir. Həmin nəzəriyyə, nisbilik

nəzəriyyəsi və kvant fizikası XIX əsr fizikasından necə fərqlənəcəksə, müasir elmdən elə fərqlənməlidir.

Dördüncü, qeyri-elmi yanaşma. Bu yanaşmanın tərəfdarları hesab edirlər ki, şüurun çətin problemini, ümumiyyətlə, elmi çərçivədə həll etmək mümkün deyildir [3].

Şüurun çətin probleminə fəlsəfədə də çoxlu yanaşmalar mövcuddur. Maraqlıdır ki, daha çox geniş yayılmış yanaşma aqnostik xarakterlidir. Filosoflar şüurun çətin probleminin fəlsəfə çərçivəsində həllinə skeptik yanaşırlar. Bundan başqa deflyasionizm (fəlsəfi reduksionizm) və inflyasionizm (fenomenal realizm) kimi yanaşmalar da vardır [5]. Deflyasionistlərə görə şüurun fenomenal aspekti mövcud deyil. Bu səbəbdən şüurla bağlı məsələləri kvaliaya baxmadan həll etməyi təklif edirlər. Deflyasionizim çərçivəsində daha çox yayılmış yanaşmalar bihevioristik, funksional, reprezentativ və koqnitivdir. Bu yanaşmaların tərəfdarları hesab edirlər ki, şüurun çətin problemi asan problemlərin cəmi ilə adekvatdır və onları həll etmək əslində çətin problemi həll etmək deməkdir. A.Revonsuonun fikrinə görə, şüur sahəsində müasir tədqiqatlar kvalianı inkar edən fəlsəfi nəzəriyyələrin sərt tənqidi üzərində inkişaf edib [7].

İnflyasionistlər şüurun çətin probleminin mövcud olduğunu qəbul edirlər. Onlar onu da etiraf edirlər ki, şüurun fenomenal aspektlərinə baxmadan şüurla bağlı məsələləri həll etmək mümkün deyildir. Bu yanaşma çərçivəsində "noreduktiv" (reduktiv olmayan) fizikalizm və antifizikalizm çərçivəsində şüurun çətin probleminin həlli axtarışını edirlər. İnflyasionistlərin mövqeyinə görə, şüur elmi-empirik olaraq neyrofizioloji və ya koqnitiv proseslərə reduksiya oluna bilər. Ancaq metafizik olaraq belə bir reduksiya mümkün deyildir.

Nəhayət, fəlsəfədə monistik, dualistik və antimetafizik yanaşmalardan başqa, şüurun çətin probleminə plyüralistik yanaşmalar da mövcuddur. Bu yanaşma hələ populyar olmasa da, son zamanlar ona daha çox meyillilik hissi olunur. Şüura plyüralistik yanaşmada praqmatik və koqnitiv plyüralizm yanaşmalar vardır. Praqmatik plyüralizm Hilari Patnem tərəfindən inkişaf etdirilir. Məlumdur ki, XX əsrin 60-cı illərində o, fəlsəfədə funksionalizm tərəfdarı idi. Ancaq əsrin 90-cı illərinin əvvəllərindən U.Ceyms və LVitgenşteynin ideyaları əsasında "praqmatik plyüralizm" adlandırdığı yanaşma formalaşdırmağa başlayıb. Praqmatik plyüralizm, Nik Brunsveldin fikrincə, hazırda praqmatizmdə mərkəzi yer tutur [4, s. 68]. Praqmatik plyüralizmə görə, şüurun çətin problemi çoxlu sayda, lakin fundamental olaraq eyni dəyərdə olan konseptual sistemlərin çərçivəsində həll oluna bilər. Yəni praqmatik plyüralizm şüuru müxtəlif konseptual sistemlərin terminlərində izah etməyi təklif edir.

Koqnitiv plyüralizm ameriklı filosof Stiven Horstun adı ilə bağlıdır. O, 2007-ci ildə şüurun müasir fəlsəfəsini tamamilə yenidən yaratmaq ideyasını irəli sürüb [4]. Onun yanaşmasının əsasında Kantın bir ideyası dayanır – bizim dünyaya baxışımız koqnitiv arxitekturamızla müəyyən olunur. Ancaq Kantdan fərqli olaraq Horst insan şüurunda bir deyil, bir neçə reprezentativ sistemdən istifadə edir. Bu reprezentativ sistemlərin hər biri özəl problemlərin (problemlər qrupunun) həllinə uyğunlaşıb. Həmin sistemlər neyron şəbəkələrinin müəyyən hissəsi ilə əlaqəlidirlər və dünyanın konkret fraqmentinin modelləşdirilməsinə məsuliyyət daşıyırlar.

Beləliklə, indiki mərhələdə şüurun çətin probleminə çox müxtəlif və bir çox məqamlarda bir-birini təkzib edən yanaşmalar mövcuddur. Bu, bir tərəfdən problemin mürəkkəbliyi ilə bağlıdırsa, digər tərəfdən yuxarıda vuğulanan yanaşmaların hər birinin problemin həlli üün yetərli koqnitiv-metodoloji potensiala malik olmaması ilə əlaqəlidir. Digər tərəfdən, burada, ümumiyyətlə, məsələnin həllinə adekvat fəlsəfi-elmi mövqedən yanaşmamağı da kənara atmaq olmaz. Bütün hallarda şüurun çətin problemi müxtəlif yanaşmaların fərqli nəticələri arasında "çətinliklə duruş gətirir". Bəlkə, ümumiyyətlə, problemə tamam fərqli prizmadan yanaşmağın mənası vardır? Və ya bu problem, ümumiyyələ, həll edilən deyil? Çünki bunun üçün insan dərketmə prosesində şüurun çərçivəsindən kənara çıxmalıdır?

**Postneoklassik yanaşma: şüurun çətin problemi emercent interfeys zonasında yeni məna kimi**

Beləliklə, şüurun çətin probleminə indiki mərhələdə mövcud olan yanaşmaların qısa təsnifatı göstərir ki, hələlik bu məsələdə konkret mövqe formalaşmayıb. Yuxarıdakı yanaşmaları müqayisə edəndə onların hər biri üçün ortaq olan bir məqamı görə bilərik: bütün yanaşmalar klassik və neoklassik fəlsəfi-elmi idrak çərçivəsində reallaşdırılır. Konkret olaraq, şüur idrak obyekti statusunda qəbul edilir və eyni zamanda şüur ikinci rolu – subyekt rolunu oynayır. Bununla yanaşı, şüurun həm obyekt, həm də subyekt (dərk edilən və dərk edən) rolunda olması klassik və neoklassik yanaşma çərçivəsində əzəldən ziddiyyətdir. Bu səbəbdən həmin yanaşma çərçivəsində hansı manevr edilsə də, məsələnin qoyuluşunda orijinallığa varılsa da, nəticə kimi şüurun çətin problemini D.Çalmers qoyuluşunda həll etmək mümkün olmur. Əslində burada "həll etmək" ifadəsinin hansı məzmun kəsb etdiyi də ayrıca bir fəlsəfi problemdir. "Şüurun çətin problemini həll etmək" semantik olaraq özündə fenomenoloji təcrübənin mövcudluğuna rasional-fəlsəfi-elmi izah vermək anlamına gəlir. Yəni öncədən aksiomatik olaraq belə bir elmi vəzifə qarşıya qoyulur: məntiqi sübut etmək lazımdır ki, şüur beyində yaranır və konkret bu mexanizmlərlə yaranır! Bəs fəlsəfi olaraq məsələnin bu cür qoyuluşu əsaslıdırmı? Söhbət D.Çalmersin ümumi formulə etdiyi məsələdən getmir. Söhbət bu cür qoyulmuş məsələni fəlsəfi-elmi idrak çərçivəsində həll etmək üçün götürülən əsas istiqamətdən gedir. Çünki burada bir incə məqam unudulur.

Məsələ ondan ibarətdir ki, şüur haqqında istənilən fəlsəfi-elmi fikir ancaq şüur vasitəsi ilə ifadə edilə bilər. Yəni şüurun özü üçün "çətin" sayılan problemi məntiqi həll etməlidir. Sualı qoyan da şüurdur, ona cavab axtaran da! Bu ziddiyyətdən klassik və neoklassik yanaşma çərçivəsində necə qurtulmaq olar? Bizcə, mümkün deyil. Və həmin yanaşmalar çərçivəsində şüurun çətin probleminin fəlsəfi və elmi həllini tapmaq imkansızdır. Bu aqnostisizm deyil, əksinə, yeni yanaşmalar axtarışına çağırışdır.

Tədqiqatçı dərk edən müşahidəçi kimi idrak pozisiyasını dəyişməlidir. Bu isə şüura şüuri yanaşmaya yeni mövqedən baxmaqdan başlayır. Yəni öncədən qəbul etmək gərəkdir ki, şüur haqqında deyiləcək hər bir fikri elə şüur özü yaradır. Bu anlamda dərketmə üçün subyekt və obyekt bölgüsü keçərli deyil. Eyni dərəcədə subyekt-obyekt təsnifatı da yaramır. Bu vəziyyətdə dərketmə bütün qütblərində postneoklassik yanaşma çərçivəsində olmalıdır. Bu isə idrakın özü ilə dialoqu, empatiya ilə simpatiyanın vəhdəti, dərk edənin idrak prosesində özünü modelləşdirmə imkanlarını axtarması kontekstində mümkün ola bilər. Şüur özünün mövcudluğuna bu mövcudluğun aktual olduğu halda öz mövcudluq şərtləri prizmasından baxmalıdır. Bu isə hələlik fəlsəfi və elmi idrakda həllini tapmamış məsələdir - müşahidəçi müşahidə prosesində özünün necə müşahidə etdiyini müşahidə edə bilmir.

Belə çıxır ki, şüurun əsl çətin problemi ondan ibarətdir ki, istənilən anda özü haqqında fikri özü deməli olur. Özü-özündən "problem yaradır" və eyni zamanda fəlsəfi olaraq bu problemi necə yaratdığını dərk etməyə çalışır. Bu incə keçid şüurun özünə refleksiyasıdır. Onun necə baş verdiyini fəlsəfi və elmi dərk etmədən şüurun çətin problemini həll etmək mümkün olmaz. Bu baxımdan bir sıra müəllifin "şüuru funksional aspektdə deyil, özlüyündə substantiv olaraq tədqiq etmək daha doğrudur" fikri daxilən ziddiyyətli görünür. Çünki "şüur özlüyündə", ümumiyyətlə, mövcud deyil. Şüur ancaq özünün şüur olduğu barədə aktuallaşanda şüurdur.

Belə demək mümkündür ki, şüurun fəlsəfi refleksiyası şüurun özünüdərkidir. Amma bu problemin həlli fəlsəfi-elmi yanaşma çərçivəsində reallaşa bilər. Bu baxımdan D.Çalmersin yanaşmasının əhəmiyyəti vardır. Sırf fəlsəfi müstəvidə şüurun özünüdərki çətin problemin yarımçıq həlli olardı. Çünki şüurun hər anda fəaliyyəti elmi çərçivədə tədqiq olunur. Məsələn, şüur neyronların fəallıq hadisəsi kimi elmdə öyrənilir. Fəlsəfə özlüyündə şüuru özünüdərk prosesində konkret parametrlərə görə sırf fəlsəfi rasionallıq çərçivəsində öyrənə bilmir. Digər tərəfdən, müasir elmdə yeni elmi istiqamətlər çərçivəsində ümumi yanaşmalar meydana gəlir. Bu yanaşmalar ümumelmi xarakter kəsb etməklə yanaşı, müəyyən qədər fəlsəfi mahiyyət də kəsb edirlər. Onlar əslində fəlsəfə ilə elmin kəsişmə sahəsində meydana gəlirlər. Buradan maraqlı və bizcə, aktual olan bir tezis meydana gəlir: şüurun çətin probleminin dərki və qoyuluşu fəlsəfə ilə elmin ortaq sahəsində meydana gəlib. Yəni bu problem əslində filosofun fəlsəfə ilə elmin ortaq kreativ sahəsində şüur haqqında düşüncələrindən doğub. Şüurun fenomenoloji təcrübə kimi tədqiqi özlüyündə məsələnin elmi qoyuluşudur. Bundan

çıxış edərək bu suala fəlsəfə ilə elmin kreativ-idraki kəsişmə sahəsində cavab axtarmaq tamamilə təbiidir. Onda şüurun çətin problemini fəlsəfi-elmi idrakın emercent interfeys zonasında meydana gələn yeni məna kimi tədqiqi məsələsini qoya bilərik. Emercent interfeys zonası müxtəlif biliklərin qarşılıqlı əlaqəsinin baş verdiyi koqnitiv "sərhəd zolağıdır". Sinergetik təsəvvürlərə görə yeni biliklər, yəni yeni mənalar məhz həmin zonada yaranır. Bu baxımdan şüurun çətin probleminin fəlsəfə ilə təbiət elmlərinin ortaq epistemoloji və metodoloji sahəsində həll edilməsi hipotezasını irəli sürmək olar. Ancaq hələ şüurun çətin probleminin tədqiqinin bu cür reduksiyasının elmi əsaslandırılması aparılmalıdır. Bu aspektdə boşluq mövcuddur.

### Nəticə / *Conclusion*

Yuxarıdakı təhlillərdən aydın olur ki, özlüyündə şüurun çətin problemi müasir fəlsəfi və elmi təfəkkür üçün aktuallığını saxlayır. Bu problemin tarixi və hazırkı mərhələdə araşdırılam səviyyəsi göstərir ki, onun həlli faktiki olaraq fəlsəfi-elmi təfəkkürün fundamental qatları ilə bağlıdır. Görünür, hətta postneoklassik yanaşma çərçivəsində şüurun çətin probleminin analizi üçün xüsusi yanaşma hazırlanmalıdır. Burada nəzəri, sosioloji, aksioloji, tarixi və kulturoloji aspektlərin sintezinə ehtiyac duyulur. Bir sözlə, şüurun çətin problemi fənlərarası yanaşma çərçivəsində daha adekvat araşdırıla bilər. Bizim məsələyə ehtiyatlı yanaşmamız səbəbsiz deyildir. Çünki mətndə də vurğuladığımız kimi, burada fundamental bir idraki paradoks mövcuddur: şüuru şüurdan başqa heç bir şeylə araşdırmaq olmur! Bu da avtomatik şüurun özünüdərki üçün "özünü tərk etməsi, funksionallaşması" ehtiyacını meydana çıxarır. Bu da "özündə şüur" anlayışını qeyri-müəyyən və paradoksal edir. Çox güman ki, bu paradoksun fəlsəfi-məntiqi və elmi həlli qoyulan problemin dərkinə ciddi təkan verəcək. Ancaq bu məqamda biz artıq sinergetiklərin aktuallaşdırdığı "metamüşahidəçi" anlayışının ziddiyyətsiz fəlsəfi-elmi obrazının formalaşdırılması kimi daha mürəkkəb bir problemin araşdırılması sahəsinə keçmiş oluruq. E.Moren mənasında "şüur ilgəyi" bitmək bilmir...

### İstifadə olunmuş ədəbiyyat / *References*


1. Chalmers D. J. Moving Forward on the Problem of Consciousness. Journal of Consciousness Studies. Imprint Academic, Vol. 4, № 1. 1997.
2. Internet Encyclopedia of Philosophy, Josh Weisberg. The Hard Problem of Consciousness.
3. Jeffrey Alan Gray. Consciousness: Creeping up on the hard problem. New York: Oxford University Press, 2006, 368 p.
4. Niek Brunsveld. The Varieties and the Cognitive Value of Religious Experiences. William James on Religion, Henrik Rydenfelt (Editor), Sami Pihlström (Editor). Palgrave Macmillan, 2013, 212 p.
5. Torin Alter. Hard problem of consciousness. The Oxford Companion to Consciousness, Edited by Tim Bayne, Axel Cleeremans, and Patrick Wilken. 1 edition. Oxford University Press, 2009, 688 p.
6. Chalmers D. Soznayushchiy um. V poiskakh fundamentalnoy teorii. Per. s angl. M.: URSS: Knizhnyy dom «LIBROKOM», 2013, 512 c.
7. Revonsuo A. Psikhologiya soznaniya. Per.: A. Stativka, Z. S. Zamchuk. Sankt-Peterburg: Piter, 2013, 336 s.
8. Vasilyev V. V. Trudnaya problema soznaniya. Moskva: Progress-Traditsiya, 2009, 272 s.


## Трудная проблема сознания: в призме коммуникативного аспекта постнеоклассического подхода

**Физули Гурбанов**
Доктор философских наук , Института философии и социологии НАНА,
заведущий отделения, Азербайджан.
E-mail: fuzuli.qurbanov59@mail.ru

**Резюме.** В статье анализируется трудная проблема сознания, сформулированная Д.Чалмерсом. Рассматривается история исследования этой проблемы в свете постнеоклассической эпистемологии. В частности, используются некоторые принципы и представления синергетики (эмерджентность, эмерджентный интерфейс, сложностность, смыслопорождение, метанаблюдатель). Выдвигается тезис о парадоксальности подходов к решению трудной проблемы сознания и о необходимости формирования междисциплинарного подхода для адекватного исследования этого вопроса.
**Цель:** философский анализ трудной проблемы сознания в рамках постнеоклассического подхода
**Методология:** постнеоклассический междисциплинарный подход
**Научная новизна:** выдвигается тезис о необходимости междисциплинарного подхода для адекватного философского познания трудной проблемы сознания
**Ключевые слова:** сознание, постнеоклассика, коммуникация, эмерджентность, сложность, эмерджентный интерфейс, смыслопорождение, смысл, наблюдатель, метанаблюдатель.